*Əmirxanov Sabir Abuzər oğlu, professor,*
*Bakı Biznes Universiteti,*
*Email: sabir-muzey@mail.ru*

# İŞĞALDAN AZAD EDİLMİŞ ƏRAZİLƏRDƏ TARİXİ ABİDƏLƏRİN BƏRPA MƏSƏLƏLƏRİ

Dünyanın ən qədim yaşayış məskənlərindən olan Azərbaycanın Qarabağ bölgəsində xalqımızın qədimliyi, həmin ərazilərdə yaşaması, təsərrüfatla, iqtisadi quruculuqla, bədii yaradıcılıqla, sənətkarlıqla, həmçinin incəsənətin ayrı-ayrı sahələri ilə məşğul olması, müxtəlif tarixi dövrlərdə əldə etdikləri yeniliklərlə, bədii-yaradıcı uğurlarla məşhurlaşması, öz qəhrəmanlıqları, cəngavərlikləri tarixi mənbələrdən məlumdur. Qarabağ ərazilərində - dağlıq və düzən sahələrdə tədqiqatçı alimlər tərəfindən araşdırılmış qədim dövrlərə aid daş abidələr, kitabələr – Kəlbəcərdəki qaya təsvirləri, Xocalıdakı dolmenlər, Xankəndidəki müxtəlif tarixi dövrləri təcəssüm etdirən kromlexlər, həmçinin bölgənin ayrı-ayrı qəsəbə, şəhər və kəndlərindən aşkarlanmış antik dövrlərə məxsus daş qutu qəbirlər yerli, ölkə və dünya əhəmiyyətli tarixi abidələr sırasındadır.

Araşdırmalardan məlum olduğu kimi, Azərbaycanda Manna, Midiya, Skit, Atropatena dövlətləri sırasında b.e.ə. IV-III əsrlərdə ölkə ərazisində Qafqaz Albaniyası dövləti yaranmışdır. Girdman, Sakasena, Uti, Paytakaran, Sisakan Qarabağın tarixi torpaqları olmuşdur (1;2).

Tədqiqatlar göstərmişdir ki, Azərbaycan ərazilərində e.ə. VI-III əsrlər dövrlərinə aid Ağcabədi, Bərdə, Tərtər, Beyləqan, Yevlax və Qarabağın Dağlıq yerlərində əcdadlarımıza aid çox sayda skif kurqanları aşkarlanmışdır. Füzuli şəhəri yaxınlığında, Quruçay vadisinin sol yamacında aşkarlanmış Azıx mağarasında Azıxantrop adamının qalıqlarının tapılması (3, səh. 328) bu ərazilərin qədimiliyini bir daha sübut edir. Qeyd edək ki, Ağdam, Laçın, Cəbrayıl, Qubadlı, Zəngilan, və digər ərazilərdə ayrı-ayrı tarixi dövrlərin inkişafını təcəssüm etdirən dünya, ölkə və yerli əhəmiyyətli memarlıq və arxeoloji abidə nümunələrinin yenidən tədqiqinə, təbliğinə zərurət yaranmışdır (4, s. 163). Həmçinin Xocalı ərazisi də Azərbaycan xalqına məxsus olan tarixi mədəniyyət abidələri ilə çox zəngindir (5, s. 67).

Antik nümunələrin Qarabağın qədim ərazisində olması Paytakaranda qədim şəhərlərin mövcudluğu barədə maraqlı məlumatlar verir. Bərdədə, Govurqalada (Ağdam), Qaraköpək təpədə (Füzuli), Ergi yaşayış yerində (Ağcabədi) və s. arxeoloji tədqiqatlar da bunu təsdiq edir.

Qarabağ bölgəsində arxeoloji abidələrdən başqa, xeyli yerüstü xristian abidələri təsdiq edilmişdir. Belə abidələrə Qarabağın Bərdə, Ağcabədi, Ağdam, Füzuli, Ağdərə ərazisində, habelə Laçın və Kəlbəcərdə rast gəlinmişdir. Bu məbədlərdən ən məşhuru Çəncəsər (Qanzasar), Amaras, Yelisey və Xotavəng məbədləridir. Onu da qeyd etmək lazımdır ki, albanlara məxsus xristian abidələri Azərbaycanın digər ərazilərində də (Qəbələ, Naxçıvan, Mingəçevir, Qazax, Tovuz, Şamaxı) mövcuddur.

Yeri gəlmişkən, XIX əsrə qədər Dağlıq Qarabağda heç bir zaman erməni etnik kütləsi olmamışdır. Qarabağın avtoxton albanlarının olmasından istifadə edərək, oraya XIX əsrdən etibarən çoxlu erməni ailəsi köçürülmüşdür.

Bunu Dağlıq Qarabağda Ağdərənin (Mardakert) Marağa kəndində Qarabağa (İranın Marağa şəhərindən) ilk 200 ailənin (erməni ailəsinin) köçürülməsi şərəfinə 1978-ci ildə ermənilərin özlərinin qoyduqları abidə əyani şəkildə sübut edir.

Qarabağ ərazisində müxtəlif dinlərin mövcud olması insan cəmiyyətinin ictimai həyatına böyük təsir göstərmişdir. Azərbaycanın hər yerində olduğu kimi Qarabağda da xristianlıq və müsəlmanlığın mövcud olması və biri digərini əvəz etməsi tikinti mədəniyyətində özünü göstərmişdir. Qarabağ ərazisində (Dağlıq Qarabağda Ağdamda Govurqala, Kəlbəcərdə Xotavəng, Laçında Ağoğlan) və Albaniyanın digər yerlərində (Qax rayonu, Qum kəndi, Qəbələ rayonu böyük Əmidli kəndi, Mingəçevir) xeyli alban xristian abidəsi inşa edilmişdir.

İslam dininin qəbul edilməsi Albaniyada (Azərbaycanda) yeni bir mərhələnin başlanğıcını qoymuşdur. Azərbaycanın Qarabağ bölgəsində müsəlmanlıq dövründə çoxlu sayda məscid və minarələr inşa edilmişdir. Bununla bərabər burada xristian kilsələri və digər dini məbədlər də saxlanılmışdır.

Həmin dövrdə Qarabağın mənəvi mədəniyyətində də çiçəklənmə dövrü başlamışdır. “Qarabaği”, “Bərdəni” təxəllüsü ilə tanınmış onlarla mütəfəkkir yetişmiş, onların adı, şəxsiyyəti və yaradıcılığı haqqında məlumatlar tarixə çevrilmişdir.

XI-XII əsrlərdə memarlığın əsas istiqamətlərini əks etdirən Şirvan-Abşeron, Naxçıvan-Marağa məktəblərinin geniş yayıldığı dövrdə Arran (Qarabağ) memarlıq məktəbi də orta əsr Azərbaycan memarlığının sonrakı inkişafını müəyyənləşdirmişdir. Memarlıq və şəhərsalma, dekorativ-tətbiqi sənət sahələri inkişaf etməyə başlamış, epiqrafik abidələr də çoxalmışdır. Qarabağ zonasında çoxu müsəlman dövrünə aid olan 2000-dən artıq müxtəlif tarixi və mədəni abidələr qeydə alınmışdır. Bunların arasında yaşayış evləri, ictimai binalar, həmçinin dini tikililr, ziyarət yerləri vardır.

Qarabağın şəhərləri – Ağdərə, Kəlbəcər, Xocavənd, Şuşa, Xankəndi, Tərtər, Füzuli, Cəbrayıl, Ağcabədi, Laçın, Qubadlı, Zəngilan – müsəlman dövründə meydana gəlmişdilər. Bu şəhərlərin quruluşunda milli-mənəvi və ideoloji təsəvvür tərzi inşa mədəniyyətində öz bədii əksini tapmışdır. Yeni milli-ideoloji xüsusiyyətlər evlərin və inzibati binaların interyerində özünü göstərir. Bu bütün Azərbaycanda, həmçinin Qarabağda orta əsrlərdə inşa olunmuş memarlıq şedevrləri ilə təsdiq olunur.

Qarabağ ərazisində çox sayda mədəniyyət abidəsi qeydə alınmışdır ki, bunların da əksəriyyəti epiqrafik abidələr təşkil edir. Azərbaycanın Şuşa, Ağdam, Bərdə, Füzuli, Zəngilan, Cəbrayıl, Laçın, Kəlbəcər rayonları ərazisindən vaxtilə xeyli miqdarda tikinti, qəbir və s. epiqrafik abidələri qeydə alınmış və tədqiq edilmişdir.

Füzuli bölgəsində Şeyx Yaqubun (XII əsr) türbəsi, Qoç Əhmədli Cümə məscidi, Hacı Ələsgət məscidi, Aşağı Veysəlli kəndindəki Mir Əli (XIV əsr) və Əhmədallar kəndindəki türbələr (XIV əsr), Şeyx İbrahim türbəsi (XVI əsr), Əhməd Sultan türbəsi, Cəlal türbəsi (h. t. 1307), Horadiz kəndindəki Cümə məscidi, Dağlıq Qarabağ ərazisində Əsgəran qalası, Cəbrayıl rayonunda “Qız qalası”, Cəbrayılın Şıxlar kəndində türbə (1308) və digər türbələr, Ağdam bölgəsində Xaçın-Dərbənd kəndi yaxınlığında 12 künclü türbə, Ağdam Cümə məscidi (1870), türbələr, Ağdamın Abdal-Gülablı kəndində hamam binası (XX əsrin əvvəlləri), Ağdamın Şahbulaq məscidi, Bərdə şəhərindəki Tərtər çayı üzərində 12 tağlı körpü (XIV əsr), “Bərdə”, “Axsadan baba” türbələri (XIV əsr), Kərbəlayi Səfxan Qarabaği tərəfindən Bərdə şəhərində tikilmiş qoşa minarəli “İmamzadə” məscid kompleksi (1868), “Bəhmən Mirzə” türbəsi, Şuşa şəhərində

səkkiz bucaqlı türbə, Pənah xan qalası, Natəvanın evi, Mamayı məscidi, Məşədi Şükür Mirsiyab oğlunun məscidli karvansarayı, Culfalar məscidi, Hacı Yusifli məscidi, Saatlı məscidi, Yuxarı Gövhərağa məscidi, Aşağı Gövhərağa məscidi (XIX əsr), Xan evi, gimnaziya binası, Laçın ərazisində Qarasaqqal türbəsi, Soltan baba türbəsi, Şeyx Əhməd türbəsi, Sarı aşığın türbəsi (XV əsr), Cicimli kəndindəki türbələr, Quşçu kəndində "Uşaq qalası", "Böyük bulaq" abidəsi (XV əsr), Həmzə Sultan sarayı (1761) da tariximiz üçün qiymətli maddi mədəniyyət nümunələridir.

XVIII əsrin II yarısında Qarabağda Bayat, Şahbulaq (Tərnəküt), Pənahabad (Şuşa) qalaları salınmış və həmin qalalarda bazar, karvansaray, məscid, hamam və s. inşa edilmişdir. Ağdamda imarətlər, Pənah xana və nəslinə aid günbəzlər tikilmişdir.

Qarabağ xanlığı dövründə bir çox qalalar (Bayat, Şahbulaq, Pənahabad (Şuşa)) tikilmiş, şəhər və qəsəbə tipli yaşayış məntəqələri salınmışdır. Qarabağ xanlığının mərkəzi Şuşada yaşayış evlərinin, ictimai tikililərin interyerlərində divar naxışlarının gözəl və tipik nümunələri yaradılmışdır.

Orta əsrlərdən məşhur olan Qarabağ xalçaları öz şöhrətini günümüzədək saxlamışdır. Qarabağ xalçaları qrupuna aid olan xalçalar adları və naxışları ilə seçilir. Qarabağ xalçaları Bərdə, Ağcabədi xalçaları olub birinci qrupa, Şuşa xalçaları adı altında ikinci qrupa, Cəbrayıl xalçaları adı altında üçüncü qrupa ayrılır.

Qarabağ xalçaçılıq sənətində qədim adət-ənənə intensiv olaraq davam etdirilmişdir. Qarabağın xalça sənəti XVII əsrin ikinci yarısından etibarən Şuşa şəhərində mərkəzləşmiş, daha geniş miqyasda inkişaf etməyə başlamışdır.

Bütün müsəlman şərqində olduğu kimi Azərbaycanda, o cümlədən Qarabağda son orta əsrlərdə də mədəniyyət, elm və ədəbiyyat yüksək inkişaf dövrü keçmişdir. Sonrakı dövrlərdə də Qarabağ mədəni mərkəz rolunu itirməmişdir.

Beləliklə, tədqiqatlar Qarabağın maddi mədəniyyət irsinin Azərbaycanın maddi və mənəvi mədəniyyətinin tərkib hissəsinin olduğunu aydın şəkildə göstərir və bu barədə əks fikirlərin əsassız olduğunu sübut etməyə əsas verir. Qarabağ abidələrinin bu günkü taleyinə gəldikdə XX əsrin sonlarında Ermənistanın törətdiyi pozuculuq fəaliyyəti, münaqişə və müharibə Azərbaycanın Qarabağ bölgəsində maddi mədəniy-yət abidələrinin taleyini təhlükə altına qoydu.

Davam edən vandalizm Azərbaycanın əsrlərlə qoruyub saxladığı tarixi abidələrin çoxunu məhv etdi. XX əsrin ən böyük faciəsini – Xocalı faciəsini törətdilər. Erməni və rus hərbi birləşmələri Xocalı əhalisini soyqırıma məruz qoydular. Ulu əcdadlarımızın tarixi yaddaş rəmzi olan məşhur Xocalı qəbristanlığını texnika vasitəsilə darmadağın etdilər. Mənfurlar Xocalıda və Şuşada bu vandalizmi ifrat dərəcəyə çatdırdılar. Məşhur Xocalı-Gədəbəy mədəniyyətinin qədim beşiyi olan Xocalı kurqanlarını yer üzündən sildilər. Şuşada Azərbaycan mütəfəkkirlərinin heykəllərini avtomat gülləəri ilə deşik-deşik etdilər. Şuşa muzeylərini dağıtdılar.

Bəşəriyyətin ulu əcdadlarının beşiklərindən biri olan Azıx mağarası ermənilərin hərbi sursat anbarına çevrildi. İslam abidələri dağıdılıb yer üzündən silindi. Alban xristian abidələri isə tamamilə saxtalaşdırıldı. Xalqımızın tarixi yadigarı olan Yelisey məbədi, Həsənriz məbədi və digər abidələrdə alban yazıları silindi. Həmin abidələrin albanlara məxsus olan əşyaları dağıdıldı. Yelisey məbədində saxlanılmış Alban hökmdarı III Vaçaqanın qəbri və sövməsindəki yazı tamamilə məhv edildi.

Nəhayət, 44 günlük İkinci Qarabağ-Vətən müharibəsində Ali Baş Komandanımızın – möhtərəm Prezidentimiz İlham Əliyev cənablarının rəhbərliyi altında tarixi qələbəmiz 30 il ərzində işğal altında olan torpaqlarımızı bizə qaytardı. Beləliklə, tarixi-mədəniyyətimizin də digər sahələrlə yanaşı bərpasına və təbliğinə, tədqiqinə şərait yaranmışdır. Belə şərəfli, çətin işin yerinə yetirilməsi bu günün tələbidir.

Beləliklə, apardığımız araşdırmalar sayəsində aşağıdakı prinsiplərə əməl olunması məqsədyönlüdür:

1. Minalardan təmizlənmiş sahələrdə tarixi abidələrin yenidən qeydiyyatı aparılmalı, əhəmiyyətliliyi araşdırılmalıdır.

2. Bərpa qrupları vasitəsilə işlər planlaşdırılmalı və bərpa şəraiti yaradılmalıdır.

3. Tarixi abidələrin əvvəlki vəziyyəti ilə (arxivdə varsa), indiki vəziyyətləri müqayisəli şəkildə təbliğ olunmalıdır.

4. Bu proseslərə beynəlxalq mütəxəssislər də dəvət edilməli, hərtərəfli fəaliyyət həyata keçirilməlidir.

## İstifadə olunmuş ədəbiyyat


1. Moisey Kalankatlu. Albaniya tarixi (tərcümə Z.M.Bünyadovundur). Bakı, Elm, 1993.

2. Azərbaycan tarixi, II c. Bakı, Elm, 1998.

3. Hüseynov S., Əfəndiyev T. Kulturologiya tarixi. Ali məktəblər üçün dərslik. Bakı, “Mars-Print”, 2012, 876 s.

4. Hüseynov S., Əfəndiyev T., Abbasov N. Dünya mədəniyyət siyasəti. Dərslik. Bakı, “Mars-Print”, 2012, 586 s.

5. Hüseynov S., Əfəndiyeva N. Turizmin əsasları. Dərslik. Bakı, “Mars-Print”, 2007, 440 s.